# Azərbaycan dünyada sülhün və təhlükəsizliyin qorunmasına böyük töhfələr verir




> *Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq prinsipləri üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

## Bakı Zirvəsində Azərbaycanın ərazi bütövlüyünə ciddi dəstək ifadə edildi

### *Zirvə görüşünün ölkəmiz üçün əhəmiyyəti*

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşü bir çox məsələlərə görə ölkəmiz üçün əlamətdar oldu. **Əvvəla,** ona görə ki, Azərbaycan həmin tədbirdə BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan bu hərəkatın sədri seçildi. Vaxtilə BMT Təhlükəsizlik Şurasına və Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etmiş gənc müstəqil dövlətimiz indi də üç il bu quruma sədrlik edəcək. Bu, çox böyük etimaddır.

**İkincisi,** Bakıda keçirilən zirvə görüşünün iştirakçıları Ermənistan -- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, səbəbləri və problemin həlli məqsədilə aparılan danışıqların indiki vəziyyəti barədə açıq və konkret məlumat əldə etdilər. Həmin məlumatların bilavasitə dövlət başçımızın dilindən səsləndirilməsi isə qonaqlar üçün daha maraqlı idi.

**Üçüncüsü,** Prezident İlham Əliyev növbəti dəfə bəyan etdi ki, BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Dövlət başçımız tədbir iştirakçılarına xitabən dedi ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycan ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

**Dördüncüsü,** 160-dan artıq ölkənin rəsmiləri və mətbuat təmsilçiləri müasir Azərbaycanın sosial-iqtisadi inkişafının canlı şahidinə çevrildilər və biz həmin "şahidliyin" əks-sədasını indidən eşidirik. Pakistan Prezidenti Arif Alvi Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşündə bildirdi ki, Azərbaycanın sədrliyi dövründə Pakistan Qoşulmama Hərəkatına dəstəyini əsirgəməyəcək: "Qoşulmama Hərəkatına üzv olan bir sıra ölkələr işğala məruz qalıb. Pakistan işğala "yox!" deyir, onu pisləyir və terrorçuluğa qarşı mübarizəni vacib hesab edir. Təşkilata üzv dövlətlər işğaldan əziyyət çəkir. Biz buna qarşı birgə mübarizə aparmalıyıq. Bu gün biz kollektiv səylər göstərməliyik".

### *"Bandunq prinsipləri" nə deməkdir?*

Qoşulmama Hərəkatı heç bir bloka daxil olmadıqlarını və tərəfsizliklərini bəyan edən 120 üzv və 17 müşahidəçi ölkə, həmçinin 10 müşahidəçi təşkilatı birləşdirən forum kimi BMT-dən sonra dünya dövlətlərinin ən böyük platforması hesab olunur. 1955-ci ildə İndoneziyada keçirilən Bandunq konfransında hərəkatın prinsipləri ərsəyə gətirilib. Birinci sammitin hazırlıq mərhələsi 1961-ci ildə Misirin Qahirə şəhərində keçirilmişdir. İlk sammit 1961-ci ildə Yuqoslaviyanın Belqrad şəhərində 25 ölkə başçısının iştirakı ilə keçirilib."Qoşulmama Hərəkatı" termini ilk dəfə olaraq 1976-cı ildə hərəkatın 5-ci konfransında qüvvəyə minmişdir

Hərəkatın başlıca məramı "soyuq müharibə"dən sonra dünyanın inkişaf etməkdə olan ölkələrinin birliyi və həmrəyliyini təmin etmək, dünyanın iki güclü qütbündən (SSRİ-ABŞ) birinə tərəfkeşlik etməməklə öz tərəfsizliyini qoruyub saxlamaq məqsədi daşıyırdı. QH-ın başlıca prinsipləri BMT Nizamnaməsinə uyğun olaraq, aşağıdakı təməl maddələri ehtiva edir: Bütün xalqların suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinə hörmət; BMT Nizamnaməsinə uyğun olaraq, hər bir xalqın özünü fərdi və ya kollektiv şəkildə müdafiə etmək hüququna hörmət və milli müstəqillik hərəkatının tanınması; Müdafiə paktlarına və ya hərbi bloklara qoşulmamaqla hər hansı güclü dövlətin maraqlarına xidmət etməkdən, dövlətlərin bir-birinə və ya ərazi bütövlüyünə qarşı zor gücdən qaçınma, soyqırımı, müharibə cinayətləri, insanlığa qarşı törədilən hər hansı zorakı əməllərin, terrorizmin -- kim, harda və nə məqsədlə həyata keçirilməsindən asılı olmayaraq -- bütün formalarının kəskin tənqidi; Qarşılıqlı maraq və əməkdaşlığın təşviqi; Ədalət və beynəlxalq öhdəliklərə hörmət. Göründüyü kimi, Azərbaycanın yeritdiyi xarici siyasət bu prinsiplərin hamısı ilə səsləşir.

### *Bakının "Konqres zalı"nda 160-a yaxın dövlət bayrağı*

Paytaxtımızın həmin ünvanında keçirilən əvvəlki beynəlxalq tədbirlərə də Avropanın və dünyanın bütün ölkələrinin təmsilçiləri cəm olunmuşdu. "Konqres zalı" indi dünya miqyaslı siyasi tədbirin iştirakçılarını qonaq edirdi. Zirvə Görüşündə elan edildi ki, tədbirdə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak edirlər. Ümumilikdə, zirvə görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar. Dövlət başçımızın qarşıladığı rəsmi şəxslərin siyahısı bitib-tükənmirdi.

Ən qürurverici məqam isə Qoşulmama Hərəkatına sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun üç il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan etməsi və Qoşulmama Hərəkatına sədrliyin Azərbaycana təhvil verilməsi idi. Həmin məqam ona görə qürurverici idi ki, dövlət başçımız sədrliyi beş, on beş və ya əlli nəfərin iştirak etdiyi tədbirdə deyil, dünyanın 160-dan çox ölkəsinin bayrağı dalğalanan məclisdə qəbul edirdi.

### *Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir*

Bu ifadəni Prezident İlham Əliyev zirvə görüşündəki nitqində səsləndirdi. Dövlət başçımızın digər fikirlərinə nisbətən bu ifadəni daha tez yada salmağımız da təsadüfi deyil. Çünki bu deyim, əslində Azərbaycanın Qoşulmama Hərəkatına üzv olmasının səbəbini də özündə ehtiva edir. Dövlət başçımız xatırlatdı ki, Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanmışdır. Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür: "Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir".

### *"77-lər qrupu"nun adı çəkildi*

Xatırladaq ki, "77-lər qrupu" beynəlxalq təşkilatlarda, xüsusən, BMT-də və onun müxtəlif orqanlarında iştirak edən inkişaf etməkdə olan ölkələrin öz maraq və mənafelərini qorumaq məqsədi ilə yaradılmış qurumdur. Həmin ölkələri təmsil edən nümayəndələr 1963-cü ildə BMT Baş Assambleyasının XVIII sessiyasında belə qərara gəliblər ki, öz maraqlarını qorumaq üçün məhz bu addımı atsınlar. "77-lər qrupu" adı isə BMT-nin 1964-cü ildə keçirilən ticarət və inkişaf mövzulu konfransında razılaşdırılıb.

Dövlət başçımız zirvə görüşündəki nitqində dedi: "Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcəkdir. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür. Bu mənada keçən ay Azərbaycanın "77-lər qrupu"na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq miqyasda səylərimizi daha da artırmağa imkan verir. Üzv dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması xüsusi əhəmiyyət kəsb edir".

### *Dağlıq Qarabağ mövzusu yenə gündəlikdədir*

Bu münaqişənin həlli üçün atılan addımlar və nəticələr zirvə görüşü iştirakçılarına daha müfəssəl şəkildə çatdırıldı. Prezident xatırlatdı ki, Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon -- ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirilmişdir. Mindən çox insan itkin düşmüşdür".

Dövlət başçımız narahatlıqla dedi ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır. Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm".

Beləliklə, Azərbaycan daha bir beynəlxalq tədbirə ev sahibliyini böyük uğurla başa çatdırdı. Tədbir iştirakçıları etiraf etdilər ki, Azərbaycan kimi sürətlə inkişaf edən dövləti və qonaqpərvər xalqı olan ölkəyə yenə də gəlmək istəyəcəklər. Sağlıq olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***